◆ Azərbaycan və Türkiyə prezidentlərinin, Pakistanın Baş nazirinin Laçına səfəri

# LAÇIN ZİRVƏSİ

## Azərbaycan və Türkiyə prezidentləri, Pakistanın Baş naziri Laçın şəhərində seyrəngahda olublar
















**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Laçın şəhərində seyrəngahda olublar.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin iki il əvvəl mayın 28-də bu seyrəngahda ilk dəfə Laçına köçən keçmiş məcburi köçkünlərə evlərinin açarlarını təqdim etdiyi barədə qonaqlara məlumat verildi.

Bildirildi ki, indi burada Laçında istifadəyə verilmiş müəssisələrin məhsulları nümayiş olunur. Sərgidə "Laçın" Aqro-Sənaye Parkında, "PIRSHAGHI" ayaqqabı fabrikinin, "Gilabi Ceramics" Yaradıcılıq Mərkəzinin Laçın filiallarında, "LATIFA" Laçın tikiş fabrikində istehsal olunan məhsullar təqdim edilir. Həmçinin sərgidə "Bakı Abadlıq Xidməti", efir yağları zavodu, "Naxışlı" tikiş evi, Laçındakı Heyvandarlıq Seleksiya Mərkəzi, "Həkəri" balıqçılıq təsərrüfatı da təmsil olunur.

Qeyd edək ki, sərgi 28 May - Müstəqillik Gününə həsr olunub.

